**F.K.BABAYEVA**
*e-mail: babayevafidan2013@gmail.com*
**:https://orcid.org/0009-0003-5572-0785**

**Gəncə Dövlət Universiteti**
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

**10.62021/0026-0028.2025.2.238**

# ŞAGİRD ŞƏXSİYYƏTİNƏ HUMANİST YANAŞMANIN SOSİAL-PEDAQOJİ MAHİYYƏTİ

***Xülasə.*** *Tədqiqat göstərdi ki, qeyri-sabit sosial vəziyyət, cəmiyyətdəki dağınıqlıq şəraitində pedaqoji fəaliyyətin mənasını müəyyən edən, uzun müddət bəşər mədəniyyətinin əsasını təşkil edən humanist ideal-ların təcəssümü şagirdə, onun fəaliyyətinin təşkilinə, yaxşılıq, gözəllik, həqiqət, insanlar arasında bəra-bər münasibətlər ideallarına adekvat yanaşmanın həyata keçirilməsini tələb edir.*
*Təlim-tərbiyədə diferensial yanaşmanın həyata keçirilməsi təhsilin humanistləşdirilməsinin amilidir. Bu yanaşma pedaqoq üçün ədalətli olmaq, hər bir şagirdə fərdi yanaşmaq, onun əhvali-ruhiyyəsini hiss et-mək, uşağın təlim fəaliyyəti və hərəkətlərini adekvat qiymətləndirmək bacarığı anlamını verir. Pedaqoji ədalətlilik anlayışı müəllim şəxsiyyətinin humanist istiqamətinin göstəriciləri olan xeyirxahlıq, insanlıq kimi keyfiyyətlərlə əlaqədardır.*

***Açar sözlər:*** *humanist yanaşma, sosial vəziyyət, pedaqoji fəaliyyət, fərdi yanaşma, ədalətlilik, əxlaqi təsəvvür*

Məlumdur ki, ənənəvi təlimdə şagird statusu təsirə məzruz qalan obyekt çərçivəsindən kənara çıxmır, xaricdən verilən tapşırığın icrası, təlim prosesinin ciddi spesifikliyi üstünlük təşkil edir, fəaliyyət və təfəkkürdə konkret məhdudiyyətlərdən və stereotiplərdən uzaqlaşmaq imkanı olmur.

Sosial və şəxsiyyətlərarası münasibətlərin monotonluğunun, rəqabət mühitinin üstünlük təşkil etdiyi ənənəvi təlim mühitdən fərqli olaraq uşaq şəxsiyyətinə humanist yanaşma əmək-daşlıq, qarşılıqlı yardım, müxtəlif şəxsiyyətlərarası münasibətlər, müxtəlif fəaliyyət formaları və təhsil prosesinin subyektlərinin qarşılıqlı əlaqəsini nəzərdə tutur. Şagirdin hissi təcrübəsi-nin məktəb təliminə uyğun olmadığını qəbul edilən ənənəvi təlimdən fərqli olaraq humanist yönümlü təlim-tərbiyə təlimin şagirdin hissi aləm və təcrübə ilə əlaqəsinə, məktəbdə və ondan kənarda əldə edilmiş biliklərin bir-birini tamamlamasına diqqət yetirir.

Ənənəvi təhsil paradiqması çərçivəsində nəzarət ciddi şəkildə müəyyən edilmiş qayda-lar çərçivəsində həyata keçirilir, qiymətləndirmə motivasiyanın əsas metodu kimi çıxış edir, öyrənmə isə aşağı qiymətlə cəzadan yayınmağa və nüfuzunu itirməməyə əsaslanır. Bu, tədri-cən tədris dəyərlərindən uzaqlaşmağa, idrak motivasiyasının zəifləməsinə səbəb olur.

Humanist yanaşmada müsbət emosional əhvali-ruhiyyənin yaradılması idrak fəaliyyəti-ni və özünütəhsilə tələbatı stimullaşdırır, uşağın yaradıcılıq qabiliyyətlərinin həyata keçirilmə-si isə motivasiya sahəsinin zənginləşməsinə köməklik edir.

Humanist yönümlü təlim prosesi şagirddə özünənəzarət və özünü qiymətləndirmə fəaliyyətinin təşkili üzrə bacarıqlar formalaşdırır.

Pedaqoji fəaliyyətdə humanist yanaşma məzmun və prosesin vəhdətidir. Təlim-tərbiyə prosesində şagird şəxsiyyətinin humanist yönümlü formalaşması baş verir ki, bu da şagirdlə-rin mənimsədiyi biliklərə istiqamət verir.

Beləliklə, şagird şəxsiyyətinə humanist yanaşmanın təbiətinə aşağıdakı dəyişməz xüsu-siyyətlər xarakterikdir: uşağın hüquq və azadlıqlarının tanınması; şagird şəxsiyyətinin təhsil prosesinin ali məqsədi və dəyəri kimi tanınması, onun şəxsi ləyaqətinə hörmət; təlim prose-

sində şagirdlərin fəallığı və yaradıcılığının genişləndirilməsi; müsbət emosional əhvali-ruhiyyə, qarşılıqlı yardım, əməkdaşlıq mühütinin yaradılması; müxtəlif fəaliyyət formaları və təhsil prosesinin subyektlərinin qarşılıqlı əlaqəsi; şagirdin hissi təcrübə və daxili aləmi ilə təlim prosesinin vəhdəti.

Məlumdur ki, hər hansı bir prosesin mahiyyətini üzə çıxarmaq üçün onun əsas xüsusiyyətlərini müəyyən etmək lazımdır.

Humanist yanaşmanın mahiyyətini üzə çıxarmaq üçün onun əsas komponenti kimi humanizmi xarakterizə etməyi zəruri hesab edirik.

Humanizmə əsaslanan pedaqoji fəaliyyət mədəni ənənələr, əxlaqi və sosial-ictimai normalar ilə müəyyən edilən davranış qaydalarına əsaslanaraq refleksiya və özünüqiymətləndirməyə qadir, düşüncəli və məsuliyyətli şəxsiyyət kimi insan tərbiyə etmək məqsədi daşıyır.

Təlim-tərbiyəyə humanist yanaşmanın əsasında humanizmin bir dəyər kimi pedaqoji cəhətdən dərk olunması dayanır. Humanizmin əsas anlayışları azadlıq, ədalətlilik, insan şəxsiyyətinə hörmət, onun hüquqlarının tanınması, şəxsiyyətin inkişafı və potensialnın reallaşdırılması kimi kateqoriyalardır.

Bu terminlərin pedaqoji şərhi humanist pedaqogikanın əsas xüsusiyyətləri ilə eynidir: şagird şəxsiyyətinə hörmət, özünüreallaşdıran şəxsiyyət kimi təhsilin ali məqsədinin tanınması, təlimdə zəruri azadlıqların təmin edilməsi və şagird hüquqlarına hörmət edilməsi, şagird şəxsiyyətinin hərtərəfli və ahəngdar inkişafına diqqət yetirilməsi, təhsil prosesi üçün nisbətən səmərəli olan əməkdaşlıq, diqqət və qayğı mühitinin təmin edilməsi.

Elmi ədəbiyyatda mövqeyimizin təsdiqini tapırıq. R.İ.Əliyevin fikrincə, humanizm anlayışı insanın şəxsiyyət kimi dəyərini, onun azadlığını, xoşbəxtliyini, inkişaf və bacarıqlarının təzahürü hüququnu tanıyan tarixən dəyişən baxışlar sistemi kimi xarakterizə olunur. O, insanın rifahını sosial institutların meyarı hesab edir, bərabərlik, ədalət, insanpərvərlik prinsiplərinə isə insanlar arasında münasibətlərin arzuolunan nəticəsi kimi baxır [1, s. 130].

V.A.Blyumkinə görə, humanizim mənəvi hadisə kimi bir neçə əxlaqi dəyərlərlə təmsil olunur ki, onların mərkəzində də insan ləyaqəti durur. Müəllif bura hörmət etmək, inam, insanlara qayğı, ədalətlilik, alturizm, fədakarlıq, təmannasızlıq, dürüstlük, vicdan kimi keyfiyyətləri aid edir [4, s.64].

Mövzu ilə bağlı növbəti konkret fikrə F.B.Sadıqovun tədqiqatında rast gəlirik. Onun fikrincə humanizm mənəvi zənginliyi, əxlaqi saflığı və fiziki kamilliyi harmonik vəhdət təşkil edən hərtərəfli inkişaf etmiş şəxsiyyət idealında ifadə olunur [3, s.310]. Bu mövqe N.M.Kazımovun fikri ilə də dəstəklənir ki, humanizm insanın və bəşəriyyətin gələcəyini müəyyən dərəcədə dərk etmək əsasında təsdiqlənir və ədalət və alturizm, qənaətcillik və səxavətlilik, mərhəmət və məsuliyyət, yeni bir bir şeyə can atmağı, insanın və bəşəriyyətin indisinə, keçmişinə hörmət etməyi səsləndirir [2, s.219-226].

Humanizm insanın öz həyatını, əməyini, özünü idarə etmək hüququnu nəzərdə tutur. Humanizmin mahiyyəti – hər bir fərdin həyatının dəyərli olmasında, insanın ali dəyər olduğunun elan edilməsindədir.

V.A.Lektorskinin mövqeyi yuxarıda qeyd olunanlardan bir qədər fərqlidir. Müəllif bir anlayış və fenomen kimi humanizmin ictimai-tarixi təhlilini apararaq onu üç nöqteyi-nəzərdən tənqid edir. Onun fikrincə, humanizm insan həyatının idealı və yolgöstərəni kimi hər yerdə iflasa uğramışdır ki, nəticədə, insan özünün yaratdığı elmi-texniki reallıqdan uzaqlaşmış, insanla məişət arasında uçurumun yaranmasına gətirib çıxarmışdır. Sovet dövlətinin ideologiyası həyata keçirən humanist terminlər totalitar rejimin qeyri-insani siyasətini ört-basdır etmək və düşünülmüş şəkildə xalqı aldatmaq üçün istifadə olunurdu. Marksist humanizmini təcəssüm etdirmək cəhdləri əks nəticəyə gətirib çıxardı. Lakin müəllifin fikrincə, humanizm idealogiyasından imtina etmək olmaz, müasir şəraitdə onun yenidən nəzərdən keçirilməsinə ehtiyac vardır. Humanizmin, yeni insan konsepsiyası və onun imkanlarının, insanın ətraf aləmlə,

təbiətlə, başqa insanlarla, digər mədəniyyət dəyərləri ilə münasibətlərinin mahiyyəti yeni nöqteyi-nəzərdən üzə çıxarılmalıdır [6, s.22-28].

Humanizm mənəvi dəyərdir, yəni onu yaşadanların davranış prinsipinin və mənəvi tələblərinin tarixən qiymətləndirilməsinin təsdiqi və möhkəmləndirilməsidir. O, müəyyən əxlaqi sistem çərçivəsində insana, onun həyatına, baxış və əqidəsinə mənəvi münasibətdə üzə çıxır.

Humanist dəyərlərin toplanması və onların fəaliyyət sərhədlərinin genişlənməsi həm insanın, həm də bütövlükdə cəmiyyətin mənəvi tərəqqisinin aparıcı meyarlarından biridir. Sosial mənada humanizm cəmiyyətin şəxs üçün əsas tələbini ifadə edir – başqa insanlara qarşı davranış və münasibəti onlara hörmət və qayğı ilə əlaqələndirmək. Bu formul İ.Kantin kateqorik imperativinin mənasını daşıyır: “.. Elə hərəkət edin ki, istənilən vaxt iradənizin maksimumu ümumbəşəri qanuna çevrilsin” [5, s.260] və “insanlığa münasibətdə başqalarından heç vaxt öz məqsədləriniz üçün sadəcə alət kimi istifadə etməyin”[5, s.270].

Biz humanizm problemini araşdırarkən humanizm və insanlıq anlayışlarını fərqləndirməyi zəruri hesab etdik. İnsanlıq-xeyirxahlıq, qayğıkeşlik, mərhəmət, həssaslıq, anlayışlı olmağın təzahüründə öz ifadəsini tapan insani keyfiyyət, xüsusiyyətdir.İnsanlıq reallıqda həyata keşirilir: fəaliyyətdə, hərəkətlərdə, insanlara və ətraf aləmə münasibətdə.

İnsanlığı-mənəvi cəhətdən zəngin və inkişaf etmiş şəxsiyyətin hisslərindən biri olduğunu hesab edən T.V.Terexovanın fikirləri ilə tam razıyıq. Psixoloji cəhətdən insanlıq anlayışlı olmaq, qayğı, yardım etməkdən ibarətdir [9, s.95-96]. Bu sıraya biz mərhəmət, dözümlülük, başqa insanların hisslərinə hörmətlə yanaşmaq, şəfqət kimi keyfiyyətləri də əlavə edə bilərik.

Bu baxımdan humanizmdə iki aspekti ayırd edirik: 1) dəyər aspekti, yəni humanizm dəyər kimi qəbul edilir; 2) təcrübəyönümlü aspekt, yəni humanizmin zahiri ifadəsi öz əksini ətraf reallıqda tapır.

İnsanlığın təzahürü həm şəxsin emosional sahəsinin inkişafını, həm də əxlaqi təsəvvürlərin formalaşmasını nəzərdə tutur. İnsanlığı, alturizmi yuxarıda qeyd olunan aspektdə nəzərdən keçirsək, onlar humanizmin praktiki aspekti ilə eyniyyət təşkil edəcəklər.

Humanizmin rasional-dəyər aspekti dəyəryönümlü pedaqoji fəaliyyət kimi humanist yanaşmanın əsasını təşkil edir.

Pedaqoji mənada humanizmin şəxsiyyət, azadlıq, ədalətlilik, xosbəxtlik və inkişaf hüquqları, insanın özünütəkmilləşdirməsi kimi əsas anlayışları humanist yanaşmanın tərkib hissələridir.

Elmi ədəbiyyatın təhlili göstərir ki, pedaqoji elmdə humanist yanaşma problemi bu kontekstdə öyrənilməmişdir. Bu isə yalnız humanizmin komponentlərinin təhlilini deyil, həm də “ədalətlilik”, “xoşbəxtlik və inkişaf hüququ”, “azadlıq” kimi anlayışların pedaqoji şərhini də tələb edir. Həm də bu, humanist yanaşmanın komponentləri kimi onların mahiyyətinin üzə çıxarılması üçün də vacibdir.

Ədalətlilik – insanın mahiyyəti və onun hüquqları haqqında müəyyən fikirlərə uyğun gələn vaciblik haqqında anlayışdır.

Ədalətlilik əxlaqi – hüquqi və sosial-siyasi şüurun kateqoriyasıdır [1, s.34].

Ədalətlilik anlayışının pedaqoji cəhətdən dərk olunması onun iki mövqedən şərhinə imkan verdi.

Əvvəla, biz ədalətliliyə müəllim şəxsiyyətinin şagirdlərə qarşı münasibətində təzahür edən keyfiyyət kimi baxırıq. Bu anlayışı V.İ.Pisarenko və İ.Y.Pisarenko belə xarakterizə edir: “Pedaqoji əxlaqda ədalətlilik müəllimin obyektivliyinin, onun mənəvi tərbiyə (xeyirxahlıq, prinsipiallıq, insanlıq) səviyyəsinin özünəməxsus ölçüsüdür. O, ictimai faydalı əməyə, təlimə münasibətində, şagirdlərin hərəkətlərinə verdikləri qiymətdə təzahür edir [7, s.76].

Mülahizələrdən aydın olur ki, alimlər pedaqoji ədalətlilik anlayışını müəllim şəxsiyyətinin humanist istiqamətinin göstəriciləri olan xeyirxahlıq, insanlıq kimi keyfiyyətlərlə əlaqələndirirlər.

Pedaqoji mənada ədalətlilik haqqında alimlərin aşağıdakı qeydləri də mühüm əhəmiyyət kəsb edir: "Ədalətlilik uşağın göstərdiyi cəhdlərin ölçüsü nəzərə alınmaqla müəllimin şagirdlərə ciddi diferensial yanaşmasına əsaslanmalıdır..." [7, s.79].

Bu mövqe V.A.Suxomlinskinin nöqteyi-nəzərincə də öz təsdiqini tapır. "Ədalətlilik – uşağın tərbiyəçiyə inamının özəyidir. Lakin fərdiyyətçilikdən, şəxsi maraq, etiras və impulslardan kənarda mücərrəd ədalətlilik yoxdur. Ədalətli olmaq üçün hər bir uşağın mənəvi aləminin incəliklərini bilmək lazımdır [8, s.93].

Təlim-tərbiyədə diferensial yanaşmanın həyata keçirilməsi təhsilin humanistləşdirilməsinin amilidir. Bu yanaşma təlim-tərbiyə səviyyəsinə görə şagirdlərin fikrən qruplara bölünməsi deməkdir.

Pedaqoq üçün ədalətli olmaq, hər bir şagirdə fərdi yanaşmaq, onun əhvali-ruhiyyəsini hiss etmək, uşağın təlim fəaliyyəti və hərəkətlərini adekvat qiymətləndirmək bacarığı anlamını verir.

Uşaq şəxsiyyətinə fərdi yanaşmanın həyata keçirilməsi həm də təhsilin humanistləşdirilməsinin amillərindən biridir. Fikrimizcə, onun əsasında İ.Kantın kateqorik imperativi durur ki, uşaq şəxsi inkişafının məqsədidir, pedaqoqun məqsədə çatmaq vasitəsi deyildir.

***İşin elmi nəticəsi.*** Qeyri-sabit sosial vəziyyət, cəmiyyətdəki dağınıqlıq şəraitində pedaqoji fəaliyyətin mənasını müəyyən edən, uzun müddət bəşər mədəniyyətinin əsasını təşkil edən humanist idealların təcəssümü şagirdə, onun fəaliyyətinin təşkilinə, yaxşılıq, gözəllik, həqiqət, insanlar arasında bərabər münasibətlər ideallarına adekvat yanaşmanın həyata keçirilməsini tələb edir.

***İşin elmi yeniliyi*** ondan ibarətdir ki, təlim prosesində şagirdlərə humanist yaranmanın mümkünlüyü və onun arqumentləri əsaslandırılmış, məzmununa isə aydınlıq gətirilmişdir.

***İşin tətbiqi əhəmiyyəti*** ondan ibarətdir ki, tədqiqat işinin məzmunundan, nəticələrindən bu sahə ilə məşğul olan tədqiqatçılar və ali pedaqoji tədris müəssisələrində pedaqogikanı tədris edən praktik müəllimlər istifadə edə bilər. Həmçinin, təlim prosesində şagirdin şəxsiyyətinə humanist yanaşmanın həyata keçirən orta məktəb müəllimləri də faydalana bilər.

**Ədəbiyyat**


1. Əliyev, R.İ. Humanist psixologiya / R.İ.Əliyev. – Bakı: ADPU, – 2023. – 197 s.
2. Kazımov, N.M. Seçilmiş əsərləri. // N.M.Kazımov. – Bakı: OKA Ofset, – c.8. – 2012. – 264 s.
3. Sadıqov, F.B. Ümumi pedaqogika. Dərs vəsaiti / F.B.Sadıqov. – Bakı: Maarif, – 2023. – 852 s.
4. Блюмкин, В.А. Мир моральных ценностей / В.А.Блюмкин, – М.: Знание, – 2011. – 64 с.
5. Кант, И. Соч. в 6 т / И.Кант, – М.: Мысль, –1965. – 311s.
6. Лекторский, В.А. Идеалы и реальность гуманизма // Вопросы философии, – 2014, № 6, – с. 22-28.
7. Писаренко, В.И. Педагогическая этика / В.И.Писаренко, И.Ф. Писаренко, – Минск, –1977. – 190 с.
8. Сухомлинский, В.А. Павлышская средняя школа / В.А.Сухомлинский, – М.: Просвещение, – 1979. – 207 с.
9. Терехова Т.В. Воспитание гуманных чувств школьников // Гуманизация и демократизация учебно-воспитательного процесса в учебном заведении. – Омск, – 1990. – с. 92-96.


**F.K. Babayeva**

**Social and Pedagogical Essence of the Humanistic Approach to the Personality of the Student**

***Summary***

The study showed that the embodiment of humanistic ideals that determine the meaning of pedagogical activity in the conditions of an unstable social situation and disunity of society and have long been the basis of human culture, requires an adequate approach to the student, the organization of his activities, the embodiment of the ideals of goodness, beauty, truth, equal relations between people.

The implementation of a differentiated approach in education is an important factor in the humanization of the educational process. This approach implies that the teacher must be fair, take into account the individual characteristics of each student, understand his emotional state and adequately assess his educational activity and actions. Pedagogical justice is associated with such moral qualities as goodwill and humanity, which are indicators of the humanistic orientation of the teacher's personality.

***Key words:*** *humanistic approach, social situation, pedagogical activity, individual approach, justice, moral perception*

**Ф.К.Бабаева**

**Социально-педагогическая сущность гуманистического подхода к личности учащегося**

***Резюме***

Исследование показало, что воплощение гуманистических идеалов, определяющих смысл педагогической деятельности в условиях нестабильной социальной обстановки и разобщенности общества и издавна составляющих основу человеческой культуры, требует адекватного подхода к ученику, организации его деятельности, воплощения в жизнь идеалов добра, красоты, истины, равноправных отношений между людьми.

Реализация дифференцированного подхода в образовании является важным фактором гуманизации учебно-воспитательного процесса. Такой подход подразумевает, что учитель должен быть справедливым, учитывать индивидуальные особенности каждого ученика,, понимать его эмоциональное состояние и адекватно оценивать его учебную деятельность идействия. Педагогическая справедливость связана с такими нравственными качествами, как доброжелательность и человечность, которые являются показателями гуманистической направленности личности учителя.

***Ключевые слова:*** *гуманистический подход, социальная ситуация, педагогическая деятельность, индивидуальный подход, справедливость, нравственное восприятие*

*Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev*

*Redaksiyaya daxil olub: 02.05.2025*